DOI: https://doi.org/10.36719/2663-4619/114/54-58

**Mahirə Quliyeva**
Azərbaycan Milli Konservatoriyası
doktorant
https://orcid.org/0009-0003-2890-2161
mahireguliyeva353@gmail.com

# Ələkbər Əsgərovun qoşazurna konstruksiyası

## Xülasə

Azərbaycan xalqının görkəmli sənətkarı, nəfəs musiqi alətlərinin virtuoz-yenilikçi ifaçısı, pedaqoq, rəqs melodiyaları, diringilərin və muğam rənglərinin müəllifi Ələkbər Əsgərovun çoxşaxəli yaradıcılığı bu gün ifaçılıq sənətinin aktual məsələlərindən biridir. Ustad sənətkarın nəfəs çalğı alətləri: klarnet, balaban, tütək, zurna, ney alətləri üzərində etdiyi reform və yeniliklər milli musiqi xəzinəmizi zənginləşdirmişdir.

Əvvəlki araşdırma yazılarımızda Ələkbər Əsgərovun hazırladığı "As" növlü Azərbaycan klarneti və iki klapanlı balaban alətləri haqqında ətraflı məlumatlar vermişik. Lakin buna baxmayaraq Ələkbər Əsgərovun çoxşaxəli və rəngarəng yaradıcılığı, etdiyi reform və yeniliklər bu gün də öyrənilməktədir.

Bu məqalədə, Azərbaycan xalqının milli və qədim alətlərindən biri olan zurnanın yaranma tarixi və söz açımı şərh olunur. Bundan başqa, ustad sənətkarımız Ələkbər Əsgərovun düzəltdiyi nəfəs musiqi alətləri kolleksiyasına daxil olan və konstruksiyalarından biri sayılan qoşazurnanın quruluş özəllikləri, hissələrinin ölçüləri və sxemi nəzərdən keçirilir. Onu da qeyd etməliyik ki, qoşazurnanın hissələrinin ölçüləri və sxemi orijinal alətdən alınıb.

Qeyd edək ki, "Azərbaycan nəfəs çalğı alətlərinin inkişafında Ələkbər Əsgərovun rolu" adlı dissertasiya işi ilk dəfə biz tərəfdən araşdırıldığı üçün bu məqalənin mövzusu da yenidir. Bu səbəbdən ədəbiyyat siyahısı az sayılı təqdim olunmaqdadır.

Məqalədə öz əksini tapan fotoşəkillər Ələkbər Əsgərovun şəxsi arxivində yer alan orijinal alətdən çəkilib.

***Açar sözlər:*** *Azərbaycan, Ələkbər Əsgərov, alət, zurna, qoşazurna, reform, arxiv*

**Mahira Guliyeva**
Azerbaijan National Conservatory
PhD student
https://orcid.org/0009-0003-2890-2161
mahireguliyeva353@gmail.com

# Construction of the Double Zurna by Alakbar Asgarov

## Abstract

The multifaceted creativity of Alakbar Asgarov, an outstanding artist of the Azerbaijani people, a virtuoso-innovator of wind musical instruments, an educator, the author of dance melodies, diringis and mugham colors, is one of the pressing issues of the performing arts today. The reforms and innovations made by the master artist on wind instruments: clarinet, balaban, pipe, trumpet, ney have enriched our national musical treasure. In our previous research articles, we have provided detailed information about the Azerbaijani clarinet and two-valve balaban instruments invented by Alakbar Asgarov. However, despite this, Alakbar Askerov's multifaceted and colorful creativity, his reforms and innovations are still being studied today.

In this article, the history and meaning of zurna, one of the national and ancient instruments of the Azerbaijani people, is explained. Apart from that, the structural features, dimensions and layout of the double wind instrument, which is included in the collection of wind musical instruments

made by our master craftsman Alakbar Askerov and is considered one of its constructions, are reviewed. It should also be noted that the dimensions and layout of the parts of the double barrel are taken from the original instrument.

Let's note that the thesis "Alakbar Askerov's role in the development of Azerbaijani wind instruments" was investigated for the first time by us, so the topic of this article is also new. For this reason, the list of literature is presented in small numbers.

The photos reflected in the article were taken from the original instrument in Alakbar Asgarov's personal archive.

***Keywords:*** *Azerbaijan, Alakbar Asgarov, instrument, zurna, double zurna, reform, archive*

## Giriş

Azərbaycan nəfəs çalğı alətlərinin görkəmli sənətkarı, pedaqoq və yenilikləri ilə xalqın irsini zəngin edən Ələkbər Əsgərov musiqiçilərin fikrincə ən virtuoz ifaçılardan biri olmuşdur. Bu gün gənc musiqiçilər "Ələkbər Əsgərov yolu" ifaçılıq məktəbini öyrənərək öz çalğılarını dünya səviyyəsində təqdim etməktədir (Quliyeva, 2021; Quliyeva, 2018; Lalə Azəri, 2021).

Ələkbər Əsgərovun çoxşaxəli və rəngarəng yaradıcılığı hər zaman musiqiçilərin diqqət mərkəzində olub. Xalqın görkəmli sənətkarları: Səid Rüstəmov, Həqiqət Rzayeva, Əhməd Bakıxanov, Əliağa Quliyev, Əlibaba Məmmədov, Rəşid Behbudov və başqaları tərəfindən Ələkbər Əsgərov iş təklifləri almış və onların rəhbərliyi ilə birlikdə çalışmışdır.

Ələkbər Əsgərovun özünəməxsus ifa tərzi onun yaradıcılığının bütün sahələrinə öz təsirini göstərmişdir. Onun bəstələdiyi rəqs melodiyaları, diringilər və muğam rəngləri Azərbaycan musiqi xəzinəsinin incilərindən sayılır. Bunlarla yanaşı sənətkarın alətlərin üzərində apardığı islahatlar da diqqətə layiqdir. Bu kolleksiyaya onun "As" köklü Azərbaycan klarneti (Quliyeva, 2023), iki klapanlı balaban (Quliyeva, 2021; Quliyeva, 2017), qoşazurna, tütək və ney alətləri daxildir. Əvvəlki araşdırmalarımızda sənətkarın "As" köklü klarneti və iki klapanlı balaban alətləri haqqında geniş məlumatlar verilmişdir. Lakin bu araşdırmada ustadın düzəltdiyi qoşazurna alətinin özəl xüsusiyyətləri təqdim olunur.

Bilindiyi kimi, zurna Azərbaycanın qədim musiqi alətlərindən biridir. Ələkbər müəllim qoşazurna alətini zurnaya istinadən yaratmışdır. Əslində bu alət zurnanın növlərindən biri də sayıla bilər.

Öncə zurnanın yaranma tarixi, sözaçımı, ədəbi mənbələrdə və klassik poeziyadakı yeri, miniatür tablolarda təsviri və alətin quruluşu haqqında tədqiqat zamanı əldə etdiyimiz materiallardan söz açmaq istəyirik (Quliyeva, 2017).

Zurna – aerofonlu qrupa aid edilən qədim nəfəs çalğı alətidir. Arxeoloji qazıntılara istinadən hələlik zurna alətinin vətəni Azərbaycan ərazisi sayılır. Hələlik ona görə deyirik ki, zurna tipli alətlər dünyanın böyük bir coğrafi ərazisinə yayılıb və müxtəlif adlarla işlədilməkdədir.

1947-ci ildə Qardaşxan Aslanov (1912–1991) Mingəçevir yaxınlığında arxeoloji qazıntılar zamanı zurnanın maral buynuzundan düzəldilmiş prototipini aşkarlamışdır (Aslanov, 1961). Maraqlıdır ki, burada zurnanın bir sıra hissələri də (tağalaq, kəmik mil) tapılmışdır. Azərbaycan Tarix Muzeyində saxlanılan bu mədəniyyət nümunəsi Tunc dövrünün sonuna aid edilir (Bünyadov, 1993, s. 54). Mütəxəssislər alətin 3–3,5 min il yaşı olduğunu bildirmişlər. Qışqırıqlı, çığırtılı, hay-küylü səsinə görə, alətə çığırtma demişlər (Bədəlbəyli, 2017, s. 65).

"Kitabi Dədə Qorqud" dastanında zurnanın ilkin növü olan surnayın da adı çəkilir (Əlizadə, 1999, s. 83). O dövrdə zurna surna adlandırılmış və sonrakı mərhələlərdə tələffüzdə "s" səsi "z"yə çevrilmiş və alətdə müəyyən dəyişikliklər də olunub.

Zurnanın (surna) adına Nizami Gəncəvi, Qazi Bürhanəddin Sivasi, Mustafa Zərir, Həbibi, Fədai, Qasım bəy Zakir və başqa klassik şairlərin əsərlərində, eləcə də "Koroğlu" dastanında tez-tez rast gəlirik.

XVI əsrdə yaşayıb-yaratmış Ustad Əsəd Surnayi, Hüseyn Surnayi və Şah Məhəmməd Surnayi kimi məşhur sənətkarlar haqqında Azərbaycanın tanınmış tarixçisi və şairi İskəndər bəy Münşi Türkman (1560–1634) əsərlərində məlumat vermişdir (Münşi, 2009, s. 391). Bilindiyi kimi, istər orta əsrlərdə,

istərsə də müasir dövrümüzdə hər bir surna və ya zurna ifaçısı həm də mükəmməl balabançalan kimi fəaliyyət göstərmişlər.

Abbasqulu Nəcəfzadə araşdırmalarında bildirir ki, qədimdə ən yaxşı instrumentalçıların adlarına ifa etdikləri musiqi alətləri də əlavə edilirdi. Məsələn, ney və ya nay ifaçılarına Nayi, surnaçılara Surnayi (yəni Zurnaçı), kamançaçalanlara Kamançayi, tənbur ifaçılarına Tənburi, udçalana Udi və s. kimi təxəllüslər verilirdi. Adında musiqi alətləri əks olunan bir sıra tanınmış sənətkarlarla bağlı məlumata İskəndər bəy Münşinin farsca qələmə aldığı "Tarix-i aləmara-yi Abbasi" əsərində rast gəlirik (Münşi, 2009, s. 391-392).

Həmin əsərdə surna və balaban alətlərinin məşhur ifaçısı olan Hüseyn Surnayi haqqında olduqca maraqlı bir məlumatda yer almışdır. I Təhmasibin saray musiqiçisi kimi fəaliyyət göstərən Hüseyn Surnayi bəzən kasıb təbəqənin də toy mərasimlərində çalırdı. Bu səbəbdən onu həbs edirlər ki, şahın musiqiçisi kasıb məclislərində iştirak edə bilməz. Uzun söhbətlərdən sonra Hüseyn Surnayi bir şərtlə azad olunur ki, bir daha kasıb məclislərində ifa etməyəcək (Bünyadov, 1993, s. 238).

Burada bir məqamı da xatırlatmaq istəyirik. Orta əsrlərdə hər bir zurnaçı öncə balaban çalmağı öyrənirmiş və mənimsədikdən sonra zurnada ifa edirmiş.

**Tədqiqat**

XIV əsrdə yaşamış Əbdülqadir Marağalı neyçə balaban (nayçe-i balaban) adlı alətdən söhbət açarkən surnayın təlimini məhz həmin alətlə aparıldığını bildirir. Yəni ustad şagirdinə hər hansı bir melodiyanı öncə neyçə balabanda öyrədirmiş, daha sonra həmin melodiyanı şagird surnayda çalarmış. Elə müasir dövrdə də bəzi zurnaçılar şagirdlərinə muğam, rəqs və mahnıları öncə balabanda öyrədirlər və tam hazır olduqda şagird öyrəndiyi melodiyanı zurnada ifa edir. Bu cür yanaşma, saatlarla məşğul olan şagirdin məşq prosesində tez yorulmaması üçündür. Beləliklə, adlarını çəkdiyimiz musiqiçilər – Ustad Əsəd Surnayi, Hüseyn Surnayi və Şah Məhəmməd Surnayi həm də XVI əsrin ən mahir balaban ifaçısı kimi tanınmışlar (Quliyeva, 2017).

Deməli, XVI əsrdən bir çox balaban ifaçılarının adları dövrümüzə gəlib çıxsa da, təəssüf ki, bəlli səbəbdən, yəni qrammofon valları həmin dövrdə icad olunmadığından onların ifalarını dinləmək imkanımız yoxdur.

Zurnanın müxtəlif adları olub: yorağ, çığırtma, surnay, zəmir (zəmr, zümr və ya qara rəngli abnos adlı hind ağacından hazırlandığından qaraney də deyiblər).

Zurna iki sözün birləşməsindən yaranıb: "zor"+"ney". Zor sözü fonetik dəyişikliyə uğrayaraq "zur"a çevrilmişdir. Bu söz dilimizdə güclü, qüvvətli mənalarını bildirir. Zurna sözünün ikinci komponenti nay (ney) isə əski türkcədə ("oxuyan qarğı, qamış") nəfəs aləti anlamında işlədilib. Digər nəfəs musiqi alətlərinin adında da "ney" sözü eyni mənada öz əksini tapmışdır: karanay – qara (böyük)+ney və ya gərənay – "gər" (gur, yoğun, qalın səsli)+"ney", surnay – "sur" (ziyafət)+"ney", koşnay – "qoşa"+"ney", xik ney – "tulum"+"ney", neyi-ənban – "ney"+"ənban" (dəri), neyçə balaban – kiçik balaban və s.

Nəticə olaraq deməliyik ki, zurna sözü güclü səsə malik olduğundan və ifa zamanı güclü nəfəs tələb etdiyində onu zurna ("zor"+"ney") adlandırıblar (Quliyeva, 2017).

Zurnanın hissələri: mil (maşasya taxılan metaldan hazırlanmış boruşəkilli detal), maşa, çığırtma və yaxud beçə (gövdənin içinə taxılan aşağı ucu ikidişli çəngələbənzər hissə), qamış səsoyadıcı (milə sapla bağlanılmış kiç ik ikiqat qamış), başlıq (səsoyadıcı qamış-ağızlığın "dodaq"larına taxılan qoruyucu hissə, bəzən buna "bənd", "kip", "qapaq", "pıtqal", "sıxnaq" və "yaşmaq" da deyirlər), tağalaq (dodaqların sürüşməməsindən ötrü milə taxılan dairəvi hissə).

İndi isə, Ələkbər Əsgərovun zurna aləti əsasında hazırladığı qoşazurnaya diqqət yetirək.

Ələkbər Əsgərov dəmkeşlik ifaçılıq üsulunu mənimsəyərək bəzi məqamlarda balaban, zurna və özünün hazırladığı qoşazurna alətlərində tətbiq etmiş və effektli ifalar əldə etmişdir (Quliyeva, 2021).

Qoşazurna alətini dinlədikdə iki melodiyanın səsləndirilməsi diqqəti cəlb edir. Burada zurnanın gövdəsi, yəni borusu üzərinə iki səsoyadıcı rolunu oynayan qamış-ağızlıq yerləşdirilmişdir. Şəkildə gördüyü kimi, səsoyadıcı-qamışların hər biri ayrıca milə bağlanılır. İfaçı nəfəsini səsoyadıcı-qamışa üfürməklə hava axını millər vasitəsi ilə qoşalaşdırılmış halda zurnanın gövdəsinə daxil olur və səslənmə yaranır (Quliyeva, 2017).

**Qoşazurnanın hissələri eyni ilə adi zurnada olduğu kimidir:**

1. Burada adi zurnadan fərqli olaraq iki mildən istifadə olunur. Bu millər metaldan boruşəkilli hazırlanmışdır.
2. Qamışdan hazırlanmış kiçik ikiqat səsoyadıcılar qoşa milə sapla bağlanılır. Son illərdə qamışı süni plastik materialla da əvəz edirlər. Belə qamışlar çeviklik baxımdan əlverişlidir. Yəni ikiqat qamış-ağızlıqlara ifadan öncə xüsusi hazırlıq tələb olunduğu halda, plastik səsoyadıcılarda buna ehtiyac yoxdur. Belə ağızlıqlarla qoşazurnanı istənilən anda səsləndirmək olur.
3. Başlıq – səsoyadıcı qamış-ağızlığın “dodaq”larına taxılan qoruyucu hissədir. Bəzən buna müxtəlif bölgələrdə “bənd”, “kip”, “qapaq”, “pıtqal”, “sıxnaq” və “yaşmaq” da deyirlər. Başlıq qamışı zədələməkdən qoruyur, onun ömrünü uzadır.

Tağalaq – ifaçının dodaqlarının sürüşməməsindən ötrü milə taxılan dairəvi hissədir. Bu hissəni kəmikdən və ya plastik materialdan hazırlayırlar.

4. Müştük – yuxarıda adıçəkilən bütün detalların (millər, ikiqat qamış-səsoyadıcılar, onların başlıqları, tağalaq) toplusudur.
5. Maşa – bəzən çığırtma və yaxud beçə də adlandırılır. Bu hissənin aşağı ucu ikidişli çəngələ bənzəyir və yuxarı hissənin təxminən 20 mm sonrakı hissəsi gövdənin içinə keçirilir.
6. Gövdə – qoşazurnanın ərik ağacından hazırlanmış borusudur. Bu borunun sonluğu qıf şəklində genişlənir.

## ƏLƏKBƏR ƏSGƏROVUN QOŞAZURNA ALƏTİNİN QURULUŞ ÖZƏLLİKLƏRİ



## QOŞAZURNANIN SXEMİ





**Qoşazurna alətinin hissələrinin ölçüləri**

1. Alətin ümumi uzunluğu – 340 mm;
2. Alətin gövdəsinin uzunluğu – 280 mm;
3. Gövdə xarici maşanın uzunluğu – 18 mm;
4. Maşanın diametri – 20 mm;
5. Gövdə içi maşanın diametri – 13 mm;
6. Müştüyün diametri – 4 mm;
7. Üst çalğı dəliklərindən sonra gövdənin diametri – 45 mm;
8. Gövdənin aşağı hissəsinin diametri – 69 mm;

9. Gövdənin divarının qalınlığı – 5 mm;
10. Çalğı dəliklərinin divarları – 7 mm;
11. Gövdənin aşağı hissəsinin iç diametri – 59 mm;
12. Müştüyün qamışla birlikdə hündürlüyü 60 mm;
13. Maşadan sonra müştüklə qamışın hündürlüyü – 41 mm.

## Nəticə

Beləliklə, Ələkbər Əsgərovun zurna aləti əsasında etdiyi yeni konstruksiyası nəzərdən keçirilərək diqqətə çatdırıldı.

## Ədəbiyyat

1. Aslanov, G.M. (1961). *O muzykal'nykh instrumentakh drevnogo Azerbaydzhana*. Sovetskaya arkheologiya. №2, 236-239.
2. Bədəlbəyli, Ə.B. (2017). *İzahlı monoqrafik musiqi lüğəti*. Bakı: Şərq-Qərb, 472.
3. Bünyadov, T.Ə. (1993). *Əsrlərdən gələn səslər*. Bakı: Azərnəşr, 264.
4. Əlizadə, S. (1999). *Kitabi-Dədə Qorqud*. Bakı: Yeni Nəşrlər Evi, 704.
5. Quliyeva, M.E. (2021, 28-30 may). *Rəqs melodiyalarında yenilikçi yanaşma və struktur xüsusiyyətləri Elekber Esgerov*. VII Beynəlxalq Musiqi və Rəqs Konqresi Sakarya Universiteti Yayınları. № 209, 329-337.
6. Quliyeva, M.Ə. (2017). Balaban aləti və Ələkbər Əsgərovun işləmələri. "Konservatoriya". *Elmi jurnal, №3 (37)*, 25-30.
7. Quliyeva, M.Ə. (2017). *Ələkbər Əsgərovun bəstələdiyi rəqslərin müqayisəli təhlili*. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Türksoylu Xalqların Musiqi Mədəniyyətinin Tədqiqi Problemləri, XVI Beynəlxalq elmi-praktik konfrans materialları. Bakı, 172-173.
8. Quliyeva, M.Ə. (2017, oktyabr 26-27). *Ələkbər Əsgərovun bəstələdiyi rəqs melodiyalarının struktur özəllikləri*. "Qloballaşan Dünyada Musiqi Ənənələri", I Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 178-182.
9. Quliyeva, M.Ə. (2018). *Ələkbər Əsgərovun rəqs melodiyaları və muğam rəngləri*. Bakı: Ecoprint, 25.
10. Quliyeva, M.Ə. (2018, noyabr 22-23). *Nəfəs çalğı alətlərinin görkəmli nümayiəndəsi Ələkbər Əsgərovun yaradıcılıq məziyyətləri*. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Doktorantların və Gənc Tədqiqatçıların XXII Respublika Elmi Konfransının Materialları. İki cilddə, II c. Bakı, 493-495.
11. Quliyeva, M.Ə. (2021). *Ələkbər Əsgərovun balaban aləti üçün köçürmələri və işləmələri*. Tərtibçi və redaktor. Bakı: "Zərdabi nəşriyyat-poliqrafiya" MMC, 190.
12. Quliyeva, M.Ə. (2021, aprel 29-30). *Milli nəfəs çalğı alətlərinin inkişafı və Ələkbər Əsgərovun ifaçılıq məktəbi*. Üzeyir Hacıbəyli adına BMA-nın 100 illiyi çərçivəsində "Etnoorqanologiya: aktual problemlər və vəzifələr" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 242-253.
13. Quliyeva, M.Ə. (2023). Klarnetin tarixi inkişafı və Ələkbər Əsgərovun alət üzərində etdiyi yeniliklər. Bakı: *"Elmi iş" beynəlxalq elmi jurnal*. İmpakt Faktor: 2.255 Cild: – 17, Sayı: 3, 33 40.
14. Lalə Azəri. (2021, avqust 20). *Nəşri əlli il gecikən toplu*. "Mədəniyyət" qəzeti, 7.
15. Münşi, İ.T. (2009). *Tarix-i aləmara-yi Abbasi ("Abbasın dünyanı bəzəyən tarixi", fars dilindən tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri: Oqtay Əfəndiyev və Namiq Musalı)*. Bakı: "Təhsil", 792.

Daxil oldu: 23.12.2024
Qəbul edildi: 28.03.2025